

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 153 (23.315)

*20 avqust 2019-cu il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Naxçıvanda yüksək bal toplamış tələbələrlə görüş olub





Avqustun 19-da Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə görüş keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan Muxtar Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarının uğurla başa çatması münasibətilə tələbə adını qazanan məzunları, onların valideynlərini və bütün təhsil ictimaiyyətini təbrik edərək demişdir: Hər bir xalqın inkişaf göstəricisi və dünya birliyində tutduğu mövqe onun təmsil etdiyi ölkənin təhsil səviyyəsi ilə ölçülür. Təhsili millətin gələcəyi sayan Azərbaycan təhsil siyasətinin banisi, ümummilli lider Heydər Əliyev bu sahəni ölkənin inkişafının prioritet sahəsi sayaraq deyirdi: ***"Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o, mütləq, hər şeydən çox təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanlar yaradılmalıdır".*** Dahi rəhbərin təhsilin qarşısında duran vəzifələrlə bağlı tövsiyə və tapşırıqları Azərbaycanın strateji inkişafına xidmət edən, bütün dövrlər üçün aktual, yüksək dəyərli fəaliyyət proqramıdır.

Ali Məclisin Sədri demişdir: Təhsil hər bir vətəndaşın həyatını düzgün qurmasında, fəal vətəndaş mövqeyini formalaşdırmasında, cəmiyyətin inkişafı və dövlət quruculuğunda yaxından iştirakında mühüm rol oynayan prosesdir. Bu prosesin fəal üzvü olmaq və uğurlu nəticə əldə etmək üçün hər bir gənc geniş dünyagörüşə və müasir tələblərə uyğun təhsilə malik olmalıdır. Qloballaşan dünyada yaşadığımız innovativ və dayanıqlı inkişaf dövrü yeni nəsildən daha mükəmməl təhsil almağı, elmi biliklərə və peşələrə dərindən yiyələnməyi tələb edir. Naxçıvan Muxtar Respublikasında da təhsil davamlı inkişaf dövrünü yaşamaqdadır. Naxçıvanda elm və təhsil quruculuğu müasir dövrün çağırışlarına və iqtisadi potensialın insan kapitalına çevrilməsinə əsaslanır. Yeni tikilən, yenidən qurulan məktəb binaları, yaradılan maddi-texniki baza, kadr hazırlığının müasir vəziyyəti və əldə olunan nailiyyətlər muxtar respublikada müasir təhsil mühitinin bugünkü inkişaf səviyyəsindən xəbər verir. Gənclərimiz yeni istifadəyə verilən məktəb binalarında qurulan qabaqcıl texnologiyalardan – sürətli internetə çıxışı olan kompüter, elektron lövhə, elektron kitabxana və distant təhsil imkanlarından yararlanmaqla ən müasir şəraitdə təhsil alırlar. İnnovativ inkişafa xidmət edən startap layihələrinin dəstəklənməsi və həyata keçirilməsi gənclərin innovasiya mühitinə inteqrasiyasını təmin edir. Bu səbəbdən, ümumtəhsil məktəblərini bitirən məzunlar ali və orta ixtisas məktəblərinə qəbulda yüksək nəticələr göstərir, gənclərimiz beynəlxalq layihələrdə uğurla təmsil olunurlar. Naxçıvan Muxtar Respublikasında gənclərin işlə təminatı diqqətdə saxlanılır, onlar ixtisaslı kadr kimi yetişərək ölkəmizin inkişafında, həyata keçirilən quruculuq tədbirlərində yaxından iştirak edirlər. İstedadlı gənclərə dövlət idarəçiliyi, ictimai-siyasi və iqtisadi sahələrdə böyük etimad göstərilir, müstəqil dövlətimizin inkişafı, möhkəmlənməsi və müdafiəsində onların potensialından geniş istifadə olunur.

Ali Məclisin Sədri demişdir: Bu gün qarşımızda mühüm vəzifələr durur. Muxtar respublikamızda gənclər siyasətinin əsasını gələcəyin qurucuları olan yeni düşüncəli nəslin formalaşdırılması, milli ruhlu, vətənpərvər



gənclərin hazırlanması təşkil etməlidir. Aparılan siyasət gənclərimizə öz tarixi keçmişini aşılamalı, mənəvi kamilliyə və əqidə saflığına xidmət etməlidir. Təhsil siyasətinin mühüm prinsipləri gənclərin milli dəyərlər əsasında tərbiyələndirilməsi, mənəvi cəhətdən sağlam və iradəli gəncliyin yetişdirilməsi olmalıdır. Ümummilli liderimiz Heydər Əliyev dövlət gənclər siyasətinin əsas məqsədini dövlətə və xalqa layiqli vətəndaş olmaqda görür və gənclərə müraciətində deyirdi: ***"İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsəd Azərbaycan vətəndaşı hazırlamaqdır, müstəqil Azərbaycan cəmiyyətinin layiqli üzvünü hazırlamaqdır!"*** Bütün bu qeyd olunanları nəzərə alaraq, siz, vətənimizin və xalqımızın inkişafı naminə yaxşı təhsil almalı, seçdiyiniz ixtisası mükəmməl öyrənməli, öz peşənizin sahibinə çevrilməlisiniz. Hər biriniz müstəqil Azərbaycanın gələcəyi üçün məsuliyyət daşımalı, ana dilini və Vətən tarixini dərindən öyrənməli, milli dəyərlərimizə sahib çıxmalı, mənsub olduğunuz xalqın layiqli vətəndaşı olmalısınız.

Ali Məclisin Sədri tələbə adını qazanmış hər bir gəncə ümummilli lider Heydər Əliyevin dövlətçilik məktəbindən öyrənməyi, azərbaycançılıq ideologiyasına, milli dəyərlərimizə bağlı, yeni fikirli, müasir gənclər kimi müstəqil Azərbaycan naminə fəaliyyət göstərməyi arzulamışdır.

Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov tədbirdə çıxış edərək demişdir ki, muxtar respublikada bütün sahələr kimi, təhsil də diqqət və qayğı ilə əhatə olunub. Bunun nəticəsidir ki, 2019-cu ilin birinci yarımilində Şərur rayon Kərimbəyli və Ordubad rayon Dəstə kənd tam orta məktəbləri üçün binalar tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmişdir. Hazırda isə Naxçıvan şəhər 5 və 12 nömrəli, Şərur rayon Yeni Havuş, Muğanlı, Muğancıq Mehrab, Xələc, Babək rayon Kültəpə, Gülşənabad, Ordubad rayon Vənənd, Kəngərli rayon Böyükdüz, Şahbuz rayon Türkeş kənd məktəbləri üçün binaların tikintisi və ya yenidən qurulması davam etdirilir. Muxtar respublikanın ümumtəhsil məktəblərində sürətli internetə çıxışı olan 5500-dən artıq kompüter və 600-dən artıq elektron lövhə quraşdırılmış, laboratoriyalar və fənn kabinələri şagirdlərin istifadəsinə verilmiş, kitabxanalar 3 milyona yaxın dərslik, 600 mindən çox latın qrafikası ilə nəşr olunmuş bədii ədəbiyyatla təmin olunmuşdur.

Qeyd olunmuşdur ki, məktəblərdə tədrisin müasirləşdirilməsi diqqətdə saxlanmış, innovativ tədris metodlarının tətbiqinə başlanılmışdır. Muxtar respublikada müəllim nüfuzunun artırılması, təhsil işçilərinin fəaliyyətinin stimullaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər davamlı xarakter almış, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamlarına əsasən bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin həftəlik dərs yükü 1,5, vəzifə maaşı 2 dəfə, cari il sentyabrın 1-dən isə bu kateqoriyadan olan müəllimlərin aylıq vəzifə maaşları əlavə olaraq orta hesabla 20 faiz artırılmışdır. Bununla yanaşı, müəllimlərin işə qəbulu şəffaflıq və obyektivlik baxımından təkmilləşdirilmiş, muxtar respublikada 2018-ci ildən etibarən müəllimlərin işə qəbulu sahəsində mərkəzləşdirilmiş müsabiqə mexanizmi tətbiq edilmiş, bunun da nəticəsində ümumtəhsil məktəblərinin bilikli kadrlarla təminatı yaxşılaşdırılmışdır. 2018-2019-cu tədris ili üzrə ümumtəhsil məktəblərini 2734 məzun bitirmiş, onlardan 2301-i, yaxud 84 faizi ali məktəblərə sənəd vermişdir. Qəbul üçün sənəd verən məzunların 1180-i və ya 51 faizini qızlar, 1121 və ya 49 faizini isə oğlanlar təşkil etmişdir. Bu il orta ixtisas məktəblərinə qəbul üçün ümumi orta təhsil bazasından 1021, tam orta təhsil bazasından isə 268 olmaqla, ümumilikdə, 1289 məzun sənəd vermişdir. 2019-cu ildə muxtar respublikanın 160 ümumtəhsil məktəbindən Heydər Əliyev adına Hərbi Liseyə qəbul üçün 449 şagird sənəd vermiş, onlardan 142-si kursant adını qazanmışdır. Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə qəbul üçün 362, Qızlar Liseyinə isə 207 şagird sənəd vermişdir. İmtahanın nəticələrinə əsasən 60 şagird Naxçıvan Qızlar Liseyinə, 60 şagird isə Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə qəbul olmuşdur.

Ötən tədris ilində ümumi təhsildə 11 il bundan əvvəl başlanmış məzmun islahatları başa çatmış, buraxılış imtahanları 2 mərhələdə təşkil edilmiş, ilk dəfə olaraq ali məktəbə qəbul həmin buraxılış və qəbul imtahanlarında toplanan ballar nəzərə alınmaqla aparılmışdır. 2019-cu ilin məzunlarından 1515-i ali təhsil müəssisələrinə qəbul olmuşdur. Eyni zamanda Heydər Əliyev adına Hərbi Liseyin məzunlarından 179-u ölkənin müxtəlif ali hərbi məktəblərinə qəbul olmuşdur. Ümumilikdə, ali hərbi məktəblərə və Azərbaycan Respublikasının digər ali məktəblərinə 1694 məzun qəbul olmuşdur ki, bu da həmin təhsil müəssisələrinə sənəd verənlərin 68 faizini təşkil edir. Abituriyentlər ixtisas seçimi zamanı muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrinə daha çox üstünlük verirlər. 2019-cu ildə 1168 məzun, yaxud qəbul olanların 77 faizi Naxçıvan Muxtar Respublikasında yerləşən ali təhsil müəssisələrini seçmişlər. Tələbə adını qazanan məzunlardan 199-u isə xüsusi təyinatlı ali məktəblərə qəbul olmuşlar. Bu il qəbul imtahanlarında məzunların 281-i 500-700 arası bal toplamışdır ki, onların da 172-ni, yaxud 61 faizini qızlar, 109-nu, yaxud 39 faizini isə oğlanlar təşkil edir. Yüksək bal toplayan abituriyentlərin 71-i Naxçıvan şəhər, 46-sı Şərur, 36-sı Babək, 27-si Ordubad, 28-i Culfa, 10-u Kəngərli, 18-i Şahbuz, 3-ü Sədərək rayonunun, 42-si isə Təhsil Nazirliyinə birbaşa tabe ümumtəhsil məktəblərinin məzunlarıdır. Ali məktəblərə qəbulda muxtar respublikanın 100 məktəbinin məzunları 500-700 arası nəticə göstərmişdir. Təhsilə göstərilən dövlət qayğısının nəticəsidir ki, 2018-2019-cu tədris ilində məzunlardan 13-ü "Qızıl", 16-sı "Gümüş"

*Ardı 2-ci səhifədə*



medallara, 45-i isə fərqlənmə attestatına layiq görülmüşdür. Həmin məzunlar onlara göstərilən etimadı doğrultmuş, buraxılış və qəbul imtahanlarının yekun nəticələrinə əsasən 500-700 arası bal toplamışlar.

Valideyn Aynurə Hüseynova çıxış edərək demişdir: "Muxtar respublikada iqtisadi, mədəni sahələrlə yanaşı, təhsilin inkişafı sahəsində də böyük uğurlar qazanılmış, şagird və tələbələrin təhsil almaları üçün hər cür şərait yaradılmışdır. Müəllimi olduğum Naxçıvan şəhər 1 nömrəli tam orta məktəb 2005-ci ildə yenidən qurulmuş, kompüter, elektron lövhə, dərslik, bədii ədəbiyyat və tədris vəsaitləri ilə təchiz olunmuş, şagirdlərin dəqiq elmlərə dərindən yiyələnməsi üçün laboratoriya və fənn kabinələri yaradılmış, müasir tədrisin tələblərinə uyğun infrastruktur qurulmuşdur. Bütün bunlar məktəbdə tədrisin keyfiyyətinin yüksəlməsinə geniş imkanlar açmışdır. 2018-2019-cu tədris ilində məktəbi bitirən şagirdlərdən 2-si fərqlənmə attestatı almış, 13-ü isə ali təhsil müəssisələrinə qəbul olmuşdur. Qəbul imtahanlarında şagirdlərdən 4-ü 500-dən yuxarı bal toplamışdır. Bu gün mən çox sevinirəm ki, muxtar respublikada təhsilə göstərilən dövlət qayğısının nəticəsi olaraq övladım tam orta məktəbi fərqlənmə attestatı ilə bitirmiş, 623 bal toplayaraq Azərbaycan Tibb Universitetinin tələbəsi adını qazanmışdır. Valideyn üçün övladını təhsilli, savadlı görməkdən böyük xoşbəxtlik ola bilməz". Aynurə Hüseynova təhsilin inkişafı sahəsində görülən işlərə görə valideynlər adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirmişdir.

Qəbul imtahanlarında 688 bal toplayan Nicat İsmayılov çıxış edərək demişdir: "Vətəninin, xalqının tərəqqisi üçün əzmkarlıqla fəaliyyət göstərən rəhbərlə görüş hər bir gəncin arzusudur. Muxtar respublikamızda təhsilin inkişafı, təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, məktəblərimizin müasir informasiya texnologiyaları, dərslik və bədii ədəbiyyatlarla zənginləşdirilməsi şagirdləri yaxşı oxumağa daha da həvəsləndirir. Təhsilimi başa vurduğum Naxçıvan şəhər 12 nömrəli tam orta məktəb bütün zəruri tədris avadanlıqları ilə təchiz edilib. Göstərilən dövlət qayğısının nəticəsidir ki, bu il də tam orta təhsili xüsusi nailiyyətlərlə başa vuran bir qrup məzun "Qızıl" və "Gümüş" medallara layiq görülüb. Mən də "Qızıl" medal alanlar sırasındayam. Bu il keçirilən respublika fənn olimpiadasında riyaziyyat fənni üzrə uğurlu nəticə əldə edərək "Qızıl" medala layiq görülmüşəm. Digər yoldaşlarım kimi məsuliyyətimi başa düşmüş, buraxılış və qəbul imtahanlarında, ümumilikdə, 688 bal toplayaraq Azərbaycan Dövlət İqtisad Universitetinin tədrisi ingilis dilində aparılan Maliyyə ixtisasına qəbul olunmuşam. Bu gün muxtar respublikada təhsil alan hər bir şagird bilikli olmaqla yanaşı, vətənini sevən, milli dəyərlərə sadiq Azərbaycan vətəndaşı kimi formalaşır". Nicat İsmayılov Naxçıvanda gənclərin təhsil alması üçün yaradılan şəraitə, gəncliyin inkişafına göstərdiyi qayğıya görə bütün məzunlar adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirmişdir.

Sonra ali məktəblərə qəbul imtahanlarında 500-700 arası bal toplayaraq tələbə adını qazanmış məzunlara "Naxçıvan: Şərqin əfsanəsi" kitabı və pul mükafatı təqdim olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

---

*Müasirləşən kəndlərimiz*

# Dövlət qayğısının daha bir nümunəsi

*Şərur – bu sevimli, günəşli torpaq*
*Əziz bir nemətdir Azərbaycana.*
*Baxdıqca ruh verir hüsnü insana*
*Xoşdur bu yerlərin şairi olmaq.*

Xalq şairi İslam Səfərli Şərur torpağının gözəllikləri haqqında danışarkən ona olan sonsuz sevgisini, məhəbbətini özünəməxsus poetik tərzdə tərənnüm edib. Şərur diyarının bu günü isə öz gözəlliyi ilə daha çox göz oxşayır, insanda yaşamaq, yazmaq həvəsi oyadır.



Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu inkişaf strategiyasının Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirilməsi nəticəsində qədim diyar gündəngünə çiçəklənir, dövlət proqramlarının və infrastruktur layihələrinin reallaşdırılması yaşayış məntəqələrini abadlığa, inkişaf və tərəqqiyə qovuşdurur. Yeni inkişaf mərhələsinə çıxan Şərur rayonunda da əhalinin rahat yaşayışının təmin olunması sahəsində həyata keçirilən tədbirlərin və insan amilinə verilən dəyərin nəticəsidir ki, quruculuq işləri ilbəil genişlənir. Görülən kompleks işlər rayonun Qışlaqabbas kəndini də əhatə edib. Hər gün bu yeniliyə, gözəlliyə baxdıqca insan fərəh hissi keçirir. Bir il sonra 90 yaşını qeyd edəcəyimiz doğma yurdda bu inkişafı görmək hər bir rayon sakinini sevindirir. Yaxın günlərdə yeni xidmət və kənd mərkəzlərinin istifadəyə verildiyi Qışlaqabbas kənd sakinlərinin də sevinci çöhrələrindən duyulur. Son illər bu yaşayış məntəqəsi, sözün həqiqi mənasında, əsl inkişaf yoluna qədəm qoyub. Kənddə yeniliklər çoxdur. Müasir tikililərlə yanaşı, tariximizi özündə əks etdirən, Qışlaqabbas kəndi ərazisində yerləşən və eramızdan əvvəl IV-I minilliyə aid "Şortəpə nekropolu"nun ətrafında da abadlıq işləri görülüb.

Kənddə yeni inşa olunan xidmət mərkəzində sakinlərə nümunəvi xidmət göstərilir. Burada ərzaq, sənaye və təsərrüfat malları mağazaları, gözəllik salonu, bərbərxana, dərzi sexi, ət satışı dükanı yerləşir. Xidmət və kənd mərkəzlərində kənd sakinləri ilə həmsöhbət oluruq. Həcər Abdullayeva yaradılan şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirərək deyir ki, mərkəzdə sakinlərə daha keyfiyyətli xidmət göstərilməsi üçün hərtərəfli şərait yaradılıb. Burada anbarın, ərzaq və təsərrüfat malları mağazalarının mövcud olması ailə təsərrüfatlarının istehsal etdikləri məhsulların satışının təşkilinə imkan verir. Otuz




beş ildən çoxdur ki, ticarətlə məşğulam. Sovetlər dönəmində kəndin mərkəzindəki mağazada satıcı işləmişəm. Müstəqillik qazandığımız ilk illərdən bu günə kimi də mağaza sahibi olmuşam. Amma düzünü deyim ki, bu cür səliqə-sahman yox idi o vaxtlar. Yaradılan şərait imkan verir ki, həm mən rahat olum, həm də alıcılar. Bu il muxtar respublikada "Ailə təsərrüfatları ili" elan olunub. Qışlaqabbas kəndinin sakinləri də çox zəhmətkeş, torpağa bağlı insanlardır. Buna görə də sakinlər bundan sonra da torpaqları əkibbecərəcək, yaxşı məhsul əldə edərək ailə təsərrüfatı məhsulları festivallarında, yarmarkalarda rayonu layiqincə təmsil edəcəklər.

Bərbər Həsən Abəzərov yeni istifadəyə verilən bərbərxana ilə bizi tanış edir. Onun söhbəti:

– Uzun illərdir, bərbərəm. Bu kənddə də, qonşu İbadullada da böyükdən-kiçiyə hamı məni tanıyır. Elə bilirəm, sözlərimə kənd sakinlərinin hamısı şərik olar. Dədə-babadan buranın yerli sakinləriyik, yaşımız da az deyil. Biz harada görmüşdük bu cür səliqə-sahmanı? Heç yatsam yuxuma da girməzdi ki, bu cür şəraitə malik bir iş yeri təmənnasız olaraq mənə veriləcək. SSRİ dövründə çöldə, kolxozda, fermada gün çıxandan ta günbatana kimi işləyirdik. Vallah, elə olurdu, vaxt tapıb yemək də yeyə bilmirdik. Tonlarla tütün, üzüm, pambıq təhvil versək də, şəninə nəğmələr qoşsaq da, hamısı havayı idi. Zəhmətimizin qarşılığında nə qazanmışıq? Heç nə. Nə yol-izimiz, nə xəstəxanamız, nə telefonumuz var idi. İndi şükür Allaha, gülüstana çevrilib kəndlərimiz. Artıq sözə nə hacət? "Görünən kənd bələdçi istəməz". Siz cavanlar görməmisiz o günləri, necə çətin sınaqlardan keçib bu günə gəldiyimizi. Bu minnətdarlıq hissimi yaradan səbəblər çoxdur. Qurub-yaradan əllər, hər bir sakinini düşünən rəhbərimiz var olsun.

Dərzi Yusif Əhmədov da söhbətimizə qoşulur, yaradılan şəraitdən ağızdolusu danışır:

– Yeni sosial obyektlər kənd sakinlərinin gündəlik tələbatının ödənilməsinə imkan verir. Muxtar respublikada gedən bu quruculuq-abadlıq işləri insanların sevincinə səbəb olur. Əvvəllər həkim ambulatoriyasının yerləşdiyi bina əsaslı şəkildə təmir olunaraq mərasim evi kimi sakinlərin istifadəsinə verilib. Qışlaqabbas və İbadulla kəndlərində yaşayanlar bu mərasim zallarından istifadə edirlər. Bunların hamısı sakinlərin firavan yaşayışı üçündür.

Ağalar Bağırov deyir ki, vaxtilə bu kənddəki üzüm bağlarından, pambıq tarlalarından sovetlərin xəzinəsinə yüz min manatlarla xeyir verilirdi. Sərvətlərimiz, insanlarımızın əməyi amansızlıqla istismar edilirdi. Əvəzinə isə biz kəndlilərə heç nə verilmirdi. Yetmiş il bu siyasətin qurbanı olan xalqımız, nəhayət, müstəqilliyini qazandı. Artıq 30 ildir ki, müstəqilik. Əvvəllər çətinliklərimiz var idi, çünki torpaqlarımızda müharibə gedirdi, blokada vəziyyətində idik. Bu sınaqdan da elimizin qədirbilən oğlu, ulu öndərin gəlişi ilə üzüağ çıxdıq. İnsanların yurda, torpağa ürəkdən bağlanmaları, halal zəhmətlə yaxşı güngüzəran qura bilmələri üçün bu gün bütün kəndlərimiz, rayonlarımız müasirləşir, abadlaşdırılır. Hər bir muxtar respublika sakini bu dövlət qayğısından bəhrələnə bilir.

Xidmət mərkəzi ilə yanaşı yerləşən kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndə Qərib Abazərovla da həmsöhbət oluruq. O bildirir ki, mərkəzdə inzibati ərazi dairəsi üzrə nümayəndəlik üçün 3, bələdiyyə üçün 2 otaq, 50 nəfərlik iclas zalı, Yeni Azərbaycan Partiyasının Qışlaqabbas kənd ərazi ilk təşkilatı, kitabxana və klub, baytar, statistika və arxivin hər biri üçün ayrıca otaq nəzərdə tutulub. Bu gün muxtar respublikamızın kəndləri müasirləşib, abadlaşıb. Kənddə yaşamaq, işləmək və qurub-yaratmaq üçün hər cür şərait var. Müasir infrastruktur yaradılıb. Tarix göstərdi ki, müstəqil Azərbaycanın bir inkişaf yolu vardır. O da ümummilli lider Heydər Əliyevin yoludur. Bu yola sədaqət bugünkü və gələcək inkişafımızın qarantıdır.

Kəndin səmimi insanları ilə söhbətdən doymaq olmasa da, iş başına qayıtmaq vaxtıdır, – deyib şəhərə üz tuturuq. Yolboyu düşünürəm ki, yay ötəcək, payız gələcək, beləcə, fəsillər bir-birini əvəz edəcək, bu yerlərin dörd bir ətrafında daha çox al-əlvan güllər açacaqdır. Kənddəki yerli qurumlarda çalışanlar öz fəaliyyətlərini hər cür şəraiti olan yaraşıqlı, işıqlı binalarda daha rahat şəkildə davam etdirəcək, xidmət obyektlərindən sakinlər yetərincə bəhrələnəcəklər. Yaşıllığa, gülə-çiçəyə bürünən abad kəndlərimizdə müstəqil Azərbaycanımızın sabahı olan balalarımız dövlət qayğısının əhatəsində böyüyəcəklər.

✍ **Ramiyyə ƏKBƏROVA**

---

# Operativ vergi nəzarəti tədbirləri görülür



2019-cu ilin iyul ayında Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi və onun yerli vergi orqanları tərəfindən muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə yoxlama və monitorinqlər aparılmış, 6 vergiödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilmiş və müvafiq tədbirlər görülmüşdür. Operativ vergi nəzarəti tədbirləri zamanı 4 vergiödəyicisinin "Fərqlənmə nişanı" olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşınması faktları aşkar edilmişdir. Keçirilən nəzarət tədbirləri zamanı 1 şəxsin vergi orqanlarında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olduğu aşkarlanmış və həmin şəxs barəsində qanunamüvafiq tədbirlər görülmüşdür. Aparılan operativ nəzarət işləri zamanı tətbiq olunmuş iki yüz manat maliyyə sanksiyası məbləğinin büdcəyə ödənilməsi təmin edilmişdir.

Qeyd olunan dövrdə müvafiq icra hakimiyyəti orqanları ilə birgə 19 işəgötürəndə aparılmış araşdırmalar zamanı 68 yeni əmək müqaviləsinin bağlanmasına nail olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası***
***Vergilər Nazirliyinin***
***mətbuat xidməti***

---

# Təlim və məşğələlər keçirilib



*"Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinə uzlaşdırma planı"na əsasən növbəti komanda-qərargah təlimi başlayıb və taqım komandirləri ilə məşğələlər keçirilib.*

Naxçıvan Qarnizonu qoşunlarında üçpilləli, ikitərəfli keçirilən növbəti komanda-qərargah təlimi müxtəlif mərhələlərdə icra edilir. Təlim çərçivəsində "Həyəcan" siqnalı ilə cəmləşmə rayonlarına çıxarılan qoşunların idarə olunması praktik həyata keçirilir.

Ərazidə əməliyyatların qərargahlar tərəfindən planlaşdırılmasından sonra qəbul edilmiş qərarlar simulyasiya mərkəzində kompüterlər üzərində icra olunacaq. Təlim avqustun 24-dək davam edəcək.

* * *

Əlahiddə Ümumqoşun Orduda taqım komandirləri ilə komandir hazırlığı məşğələləri keçirilib. Məşğələlərdə əsas məqsəd zabitlərin hərb sənəti üzrə biliklərinin, bölmələrin idarə edilməsi üzrə bacarıqlarının və komandir keyfiyyətlərinin təkmilləşdirilməsi olub.

Məşğələlər zamanı taqım komandirlərinin ümumqoşun, ixtisas, fiziki və metodik hazırlıq səviyyələri yoxlanılıb. Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində məşğələlərin yekun təhlili aparılan zaman bildirilib ki, məqbullar götürülərkən taqım komandirləri yüksək nəticə göstəriblər.

**Nəriman NƏCƏFOV**

# Oxucu məktubları

*Minnətdarlıq*

## Şəhid ailələri unudulmur

*İllər öncə iki övlad anası, xoşbəxt bir qadın idim. Ta o vaxta kimi ki çörəyi dizinin üstündə olanlar torpağımıza göz dikdilər. Evimizə, ocağımıza çörəyimizə, suyumuza xəyanət etdilər. Xalqımızı doğma yurd-yuvasından qovub dünyaya özlərini “zavallı”, “günahsız” millət kimi göstərməyə çalışan, iblis simalı ermənilərin qəfil hücumu bir çox ailənin övladını əlindən aldı. Həmin günlərdə Sədərək kəndi silahlı hücuma məruz qaldı, çox sayda evlər dağıldı, kəndin iki azyaşlı sakini isə həlak oldu.*



O vaxt oğlumun yaşı az idi. Səngərdə döyüşəcək yaşda olmasa da, orada can qoyan igidlərə silah, patron daşıyırdı. Çox vaxt da “Ana, yemək, çörək qoy, səngərdə döyüşənlərə aparım”, – deyirdi. O vaxt kimliyindən, yaşından asılı olmayaraq, hərə əlindən gələni edirdi ki, düşmənin ayağı torpağımıza dəyməsin. Neçə can qurban getdi həmin günlərdə, amma torpağımızı mərdliklə qoruduq.

Şəhid anası adını daşımaq şərəfinə, ucalığına yüksələn analardan biri də mən oldum. Düşmən gülləsinə tuş gələndə hələ 16 yaşı var idi oğlumun. O şəhid olanda qolum-qanadım sınmışdı, kimsəsiz, əlacsız qaldığımı düşünürdüm. Amma gördüm ki, şəhid anası heç vaxt tək qala bilməz. Çünki o, bütün Azərbaycan övladlarının anası olur həmin gündən. Uzun illərdir, dövlət qayğısı əhatəsindəyəm. Rayonumuzun dövlət qurumlarının işçiləri mənə öz övladım kimi qayğı göstərirlər.

Ömrümün çoxunu atamdanqalma köhnə, yararsız vəziyyətdə olan evdə keçirmişəm. Əvvəllər evimdə bir problem olanda özüm həll edirdim. Yaşım da artıq öz sözünü deyir. Yararsız vəziyyətdə olan evdə hər gün təmirə ehtiyac duyulurdu. Qışda evdə qaz sobası yansa da, isinmir, yayda isə istidən yaşamaq mümkün olmurdu. Nə isə, sözümün canı odur ki, iki il idi, rayon mərkəzi Heydərabad qəsəbəsində yaraşıqlı bir bina inşa olunurdu. Hər dəfə onun yanından keçəndə: “Oğlum sağ olsaydı, bu binadan bir ev alsaydı, bu ahıl yaşımda mən də şəraitli bir evdə yaşayardım”, – deyə düşünərdim. Günlər keçdi, bina hazır oldu və bir gün mənə xəbər çatdı ki, yeni binadakı mənzillərdən biri bizim ailəyə veriləcək. Həmin gün sevincimin həddi-hüdudu yox idi. Düzdür, o evin dəhlizində, eyvanında övladım gəzib-dolaşa bilməyəcək. Amma mən duyuram ki, onun ruhu anasına göstərilən bu qayğıya görə şaddır. Dövlət qayğısını hiss etmək mənim də yaralı qəlbimə su səpir. Mənə, mənim kimi analara bu cür qayğı göstərən Ali Məclisin Sədrinə minnətdaram.

**Dilbər HÜSEYNOVA**
***Sədərək rayonu, Heydərabad qəsəbəsi***

## Vətənin müdafiəçiləri dövlət qayğısı ilə əhatə olunublar

*Hörmətli redaksiya!*

Sağlamlıq bəşər övladının ən ali arzularından biridir. Dünyaya gəldiyimiz gündən səhhətimizin yaxşı olması üçün çalışsaq da, bəzən bu neməti itiririk və köməyə ehtiyacımız olur. Şükür Allaha ki, biz bu qayğını hiss edənlərdənik.



Hərbi xidmət dövründə sağlamlığımı itirmişəm. Sağlamlıq imkanlarım məhdudlaşdığı gündən hər an dövlətimizin qayğısını üzərimdə hiss etmişəm. Yaxın günlərdə “NAZ- Lifan 320” markalı minik avtomobili ilə təmin olunmuşam. Bu, bir daha sübut etdi ki, mənim kimi insanlar daim dövlətimizin diqqətindədir. Onların üzləşdikləri hər hansı sosial problem tez bir zamanda öz həllini tapır. Bu qəbildən olan insanların mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onlara minik avtomobillərinin verilməsi, tibbi və sosial bərpası diqqət mərkəzində saxlanılır. Bu da müharibə veteranları və iştirakçıları, şəhid ailələri tərəfindən yüksək qiymətləndirilir, gənc nəsli isə Vətənin müdafiəsində daim səfərbər olmağa ruhlandırır. Aparılan dövlət siyasəti, eyni zamanda hər bir vətəndaşa da müharibə veteranlarına dərin ehtiram bəsləməyi, qayğı göstərməyi, onlardan vətənpərvərlik ruhunu əxz etməyi aşılayır.

Atılan hər bir addım, dövlətimizin bu istiqamətdə həyata keçirdiyi tədbirlər müharibə iştirakçılarına, Çernobıl qəzasının aradan qaldırılmasında iştirak edərək sağlamlığını itirənlərə yüksək diqqət və qayğı göstərildiyini sübut edir.

Hər bir vətəndaşa öz övladı kimi qayğı ilə yanaşan Ali Məclisin Sədri cənab Vasif Talıbova ailəm adından dərin minnətdarlığımı bildirirəm.

**Tağı TAĞIYEV**
***Culfa rayonu, Camaldın kəndi***

## Təhsilə qayğı bəhrəsini verir

*Hörmətli redaksiya!*

Hər bir valideynin arzularından biri də övladının təhsil alması və gələcəkdə layiqli yer tutmasıdır. İki övladım var və təbii ki, bir ata kimi onların təhsilli olması üçün əlimdən gələni edirəm. Bizim övladımıza verəcəyimiz ən böyük xəzinə, miras təhsildir. Çünki bu xəzinə bitmək-tükənmək bilməyən yeganə var-dövlətdir.

Valideyn övladının ali təhsil alması üçün daim çalışır, zəhmət çəkir və onu gələcəkdə hansısa sənətə, peşəyə yiyələnən biri kimi görməyi arzulayır. Düşünürəm ki, övladlarımız bizdən daha şanslıdırlar, çünki onlar vətəndaşına qiymət verən bir dövlətin, müstəqil Azərbaycanın gəncləridir. Ailəmizin ilki, qızım Məleykə kənd orta məktəbini bu il bitirib. Həmin məktəbdə şagirdlərin hərtərəfli təhsil alması üçün hər cür şərait mövcuddur. Təbii ki, belə təhsil ocaqlarında oxuyan məzunun ali məktəbə qəbul olması heç də çətin deyil. Qızım da bu imkandan bəhrələnərək orta məktəb illərindən bilik yarışmalarında, fənn olimpiadalarında fəal iştirak edib. O, məktəbi qızıl medalla bitirib. Respublika olimpiadasında Azərbaycan dili və ədəbiyyatı fənni üzrə birinci yeri tutub, qızıl medala layiq görülüb. Bütün bunlar təhsilini ali məktəbdə davam etdirmək arzusunun gerçəkləşməsi üçün möhkəm təməl yaradıb. Qızım Azərbaycan Dövlət İdarəçilik Akademiyasının Hüquqşünaslıq fakültəsinin Hüquqşünas ixtisasına qəbul olub. Övladımızın bu nailiyyəti ailəmizi qürurlandırmaqla bərabər, dövlətimizə minnətdarlıq hissimizi də artırır. Onu da fəxrlə deyə bilərəm ki, bu il Dərvişlər kənd tam orta məktəbini bitirən beş nəfərdən dördü 500-700 intervalında bal toplayıb.

Övladlarımıza yaxşı təhsil almaları üçün yaradılan hərtərəfli şərait, heç şübhəsiz ki, onların gələcəkdə yaxşı mütəxəssis kimi yetişməsinə öz bəhrəsini verəcək. Onlar isə muxtar respublikamızın inkişafı yolundakı əzmkar fəaliyyətləri ilə bu yüksək etimadı layiqincə doğruldacaqlar.

**Malik CƏFƏROV**
***Şərur rayonu, Dərvişlər kəndi***

*Razılıq*

## Rahat gediş-gəliş təmin edilib

*Hörmətli redaksiya!*



Mənim 65 yaşım var. Beş övlad, nəvə sahibiyəm. Özüm Naxçıvan şəhər sakiniyəm, övladlarımın 3-ü isə Bakıda yaşayır. İldə bir dəfə yolumu oradan salıram ki, övladlarımı, nəvələrimi görüm. Əvvəllər qatar var idi, yığırdım kənddə-kəsəkdə yetişən meyvələrdən, nübarçalıqlardan hərəyə bir pay tutub rahatca gedirdim Bakıya. Bu murdar ermənilər kəsdilər yolumuzu. Gedib-gəlmək də çətinləşdi.



Ulu Tanrı xalqımızın dahi oğluna rəhmət etsin, ağır və çətin zamanda köməyimizə yetib bizi ağ günə çıxardı. Nə isə, sözümün canı odur ki, bir müddət Bakıya təyyarə ilə gedirdim, amma artıq yaş öz sözünü deyir. Bir neçə ildir ki, sağlamlığım imkan vermir təyyarə ilə getməyə. Bakı-Naxçıvan avtobusu ilə gedib-gəlirdim. Sözün düzü, yolun uzun olması məni o qədər yormurdu. Ən çətini gömrüklərdə apardığım yükü ora-bura daşımaq olurdu. Yaşlı adam üçün avtobusdan dörd dəfə yük endirib bir də qaytarıb yerinə yığmaq çox çətin idi. Aparmasam da, olmurdu. Ana ürəyidir, istəyirdim ki, balalarım Naxçıvan torpağının ətrini, dadını-duzunu yadırğamasınlar. Elə buna görə də çətin olsa da, yazda göyçədən, göbələkdən, ləvin-ləvin pencərlərdən, qışda ərik qurusundan, qovurmadan, pendirdən hərəyə bir pay tutub yola düşürdüm. Bu yaxında yolumu yenə Bakıya salmaq qərarına gəldim. Payları tutub qablaşdıranda yüklərin böyüklüyünə və ağırlığına baxıb onların çəkisini bir az azaltmaq istədikdə nəvəm dedi: – Ay nənə, narahat olma, daha çantaları gömrüklərdə bir neçə dəfə yoxlamadan keçirməyə ehtiyac qalmayıb. Gediş-gəliş rahat olsun deyə, avtovağzalda monitor quraşdırılıb. Orada yoxlamadan keçən yüklər avtobusun yük yerinə yığılıb bir də Bakıda açılacaq. Ürəyin istəyəni apara bilərsən. Mən özüm səni yola salacağam. Bakıda da əmim qarşılayar.

Bu xəbər məni çox sevindirdi: – Ay bala, səni şad xəbər ol, – dedim.

Düzü, inanmağım gəlmədi. Amma belə də oldu. Yolu elə rahat gedib-gəldim ki, necə deyərlər, heç ruhum da incimədi. Bilirəm ki, mənim kimi çoxlarının sevincinə səbəb olub bu yenilik. Dövlətimiz öz vətəndaşını hər zaman düşünür və onun rahatlığı üçün nə lazımdırsa, edir. Buna bir nümunə də elə bax Naxçıvan-Bakı gediş-gəlişində bu cür rahat şəraitin yaradılmasıdır. Günümüzün hər dəqiqəsinə rahatlıq gətirənlərə, xalqını, millətini əziz tutanlara ürəkdən: “Var olsunlar”, – deyirəm.

**Validə SƏFƏROVA**
***Naxçıvan şəhəri***

## Əhalinin məşğulluğu diqqət mərkəzindədir

*Hörmətli redaksiya!*



Bu məktubu sizə Şərur rayonunun Aşağı Daşarx kəndindən yazıram. Ailəliyəm, iki övladım var. Həm şəkər, həm də təzyiq xəstəsiyəm. Bir neçə il idi ki, uşaqlarımdan birinin səhhətindəki problemə görə qardaş Türkiyədə yaşayırdım. Çətinliklə də olsa, dolanırdıq. Qazancımın çoxunu övladımın müalicəsinə xərcləyirdim.

Bir müddət orada yaşadıqdan sonra yenidən Naxçıvana qayıtdım. Bunun səbəblərindən ən əsası yurdumuzun cənnətə çevrilməsi və burada yaşamağımız üçün hər cür rahatlığın olması idi. Əhalinin məşğulluq problemlərinin həlli istiqamətində görülən işlər, yaradılan yeni emal və istehsal müəssisələri, mövcud istehsal sahələrinin fəaliyyətinin bərpa edilməsi, sahibkarlığın inkişafına dövlət dəstəyi bu problemlərin həllində mühüm rol oynayıb. Qədim diyarda işsizliyin, demək olar ki, aradan qaldırılmasında aqrar sahə, sahibkarlıqla bağlı qəbul edilən dövlət proqramlarının da böyük rolu vardır. Təbii ki, bütün bunlar sakinləri daha möhkəm tellərlə öz el-obasına bağlayıb, kəndlərdə yeni evlərin-ocaqların sayı artıb.

Artıq altı aydır ki, doğma yurdumdayam. Buraya qayıdandan sonra keçirilən növbəti əmək yarmarkasında iştirak edərək Şərur Rayon Mənzil İstismar İdarəsində işlə təmin olundum. Qəzetiniz vasitəsilə ailəm adından dövlətimizə, ölkə başçısına, muxtar respublika rəhbərinə illərdir, insanların həyat şəraitinin yaxşılaşdırılması üçün gecə-gündüz yorulmadan əmək sərf etdiklərinə görə minnətdarlığımı bildirmək istəyirəm.

**İsmayıl QƏHRƏMANOV**
***Şərur rayonu, Daşarx kənd sakini***

## Bizə qol-qanad verən dövlətimizin dəstəyidir

*Hörmətli redaksiya!*

Torpaq islahatı keçiriləndən üzübəri taxılçılıqla məşğulam. Həmişə məqsədim bu olub ki, ailəmin çörəyə olan tələbatını öhdəmdə olan pay torpağı və icarəyə götürdüyüm sahələr hesabına ödəyəm. Özündən demək olmasın, işdən qorxan deyiləm.



Dədə-babalarımızdan da az-çox görüb-götürdüyümə görə torpağın dilini yaxşı bilirəm. Onu da yaxşı bilirəm ki, adına ana dediyimiz bu torpaq heç zaman kiminsə istəyini gözündə qoymayıb, çəkdiyi əziyyətin əvəzini artıqlaması ilə verib. Öz təcrübəmdə bunu sınaqdan çıxarmışam. Torpağın məni ümidsiz qoyduğu yadıma gəlmir. Bunun sayəsində ailəmə yaxşı dolanışıq qurmuş, kəndimizdə dəyirman, lavaş sexi açmışam. Ona görə də torpaqdan, əkib-becərməkdən ayrı düşmürəm. Keçən ilin payızında bu ilin məhsulu üçün 250 hektar sahədə taxıl əkib-becərmişdim. Zəmilərə yaxşı qulluq göstərdim. Çəkdiyim zəhmət əvəzsiz qalmadı. Yüksək məhsuldarlıqla biçini yekunlaşdırmışam. Gəlir-çıxarımı hesablayıb toyuq-cücəmin dənini götürüb məhsulumun qalanını isə dəyirmanda üyüdüb lavaş istehsal edirəm. Bu, bizə qol-qanad verən dövlətimizin dəstəyidir. Taxıl əkib-becərməyimizə görə hər il dövlətimiz bizə güzəştli qiymətlərlə lazım olan qədər mineral gübrələr, texnika verir. Bir sözlə, hər şey ürəyimcədir. Göstərilən qayğıya görə dövlətimizə minnətdaram.

**Sənan NOVRUZOV**
***Babək rayonu, Cəhri kəndi***

Mütəxəssis sözü

# Optimal müddətdə aparılan aqrotexniki tədbirlər yüksək məhsul deməkdir

*Ölkəmizdə aparılan uğurlu sosial-iqtisadi siyasət nəticəsində artıq bir neçə ildir ki, aqrar sahədə daxili istehsal hesabına əhalinin əksər kənd təsərrüfatı məhsulları ilə təmin edilməsinə nail olunub. Kənd təsərrüfatı bitkilərinin əkin strukturunda əhəmiyyətli dəyişikliklər baş verib, dənli və dənli-paxlalıların, xüsusən buğdanın istehsalına diqqət artırılıb.*



Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan və ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilən aqrar islahatlar muxtar respublikamızda kənd təsərrüfatının bütün sahələrində olduğu kimi, taxılçılığın da inkişafına etibarlı zəmin yaradıb. Naxçıvanda 2019-cu ilin "Ailə təsərrüfatları ili" elan olunması, bu sahənin inkişaf etdirilməsi üçün Tədbirlər Planının qəbul edilməsi və uğurla icra olunması isə aqrar sahənin inkişafına yeni stimul verib.

Taxıl strateji əhəmiyyətli bitkidir. Hər zaman bu sahəyə xüsusi qayğı göstərilib və göstərilir. Bunun ifadəsidir ki, mülkiyyətçilərin və sahibkarların taxılçılığa olan marağı getdikcə daha da artır, əkin sahələri genişləndirilir. Məlumat üçün bildirək ki, 2018-ci ilin payızında və 2019-cu ilin yazında muxtar respublikada 33308 hektar taxıl sahələrindən 24729 hektarı buğda, 8579 hektarı arpa olmaqla, əkin aparılıb və sahələrdən 102984 ton məhsul əldə olunub. Orta məhsuldarlıq 30,9 sentner təşkil edib.

Artıq payızlıq taxıl əkinlərinə hazırlıq işləri görülür. Taxılçılıqla məşğul olan fermerlər yadda saxlamalıdırlar ki, taxıldan yüksək məhsul əldə etmək üçün bütün aqrotexniki tədbirlər vaxtında və keyfiyyətlə yerinə yetirilməlidir.

Hava şəraitinin qeyri-sabit keçməsi nəticəsində taxıl sahələrində pas xəstəlikləri müşahidə olunubsa, həmin sahələrdə təkrar taxıl əkini keçirilməməlidir. Taxılın əsasən kartof, tərəvəz, bostan və sair bitkilərdən sonra əkilməsi daha məqsədəuyğundur. Taxıl əkiləcək sahə sələf bitkilərdən boşalan kimi hər hektar sahəyə imkan daxilində 20-30 ton üzvi və 250-300 kiloqram fosfor və 100-150 kiloqram kalium gübrələri verilərək 28-30 santimetr dərinlikdə şumlanmalıdır.Bitkilərin güclü böyüməsini, inkişafını və qışdan salamat çıxmasını təmin etmək, eləcə də əlverişsiz şəraitə müqavimətini artırmaq üçün torpağa fosfor gübrəsinin verilməsinin böyük əhəmiyyəti vardır. Haqlı olaraq el arasında ona "bar gübrəsi" də deyirlər.

Əldə olunmuş təcrübə onu göstərir ki, fosfor və kalium gübrələrinin illik normasının şum altına verilməsi məsləhətdir. Bundan başqa, azmünbitli torpaqlarda bitkiləri azotla normal təmin etmək üçün səpin zamanı toxumla birlikdə sahəyə azot gübrəsi də verilməsi məqsədəuyğundur.

Taxıl əkiləcək sahənin şumunu keyfiyyətli və səpindən 1-2 ay tez aparılması məhsuldarlığın 2-3 sentnerə qədər artırılmasına təsir göstərə bilir. Səpin optimal müddətdə aparılmalıdır. Təcrübələr göstərir ki, payızda bitkilərin güclü və mərhələli inkişafı toxumların vaxtında səpilməsindən asılıdır. Payızda bitkilərin xəstəliklərə tutulması, zərərvericilərlə zədələnməsi və dənin yetişmə vaxtı da səpin müddətindən asılıdır. Bütün bunlar bitkilərin sıxlığına, dənin keyfiyyətinə və məhsuldarlığına təsir göstərir. Ona görə də səpin optimal vaxtda başa çatdırılmalıdır. Optimal müddətdə səpilmiş sahələrdə bitkilər şaxtalar düşənə kimi kifayət qədər güclü yan köklər əmələ gətirir, möhkəmlənir və kollanır. Belə bitkilər qışın əlverişsiz şəraitinə davam gətirə bilir. Gecikmiş səpinlərdə isə cücərtilər payızda kollana bilmir və zəif halda qışlamaya başlayır. Payızda zəif kök almış bitkilər isə qışa az davamlı olur, onların çoxunu şaxta tələf edir və nəticədə əkinlərdə seyrəklik əmələ gəlir.

Muxtar respublika şəraitində əkinin aran zonalar üçün oktyabrın 1-dən 30-dək dağətəyi zonalar üçün sentyabrın 20-dən oktyabrın 25-dək aparılması məsləhətdir. Havalar səpin üçün əlverişli keçdikdə məhsulları gec toplanan bitkilərin yerində noyabr ayında da səpin aparmaq mümkündür.

Yüksək məhsul götürmək üçün tətbiq olunan aqrotexniki tədbirlər içərisində toxumun keyfiyyəti əsas yer tutur. Səpin üçün yüksəkkeyfiyyətli toxum materialının hazırlanması mühüm şərtdir. Taxıl bitkilərindən yüksək və keyfiyyətli məhsul əldə etmək üçün bu bitkilərin toxumlarının sağlam və yüksək kondisiyalı olması təmin edilməlidir. Qeyd olunmalıdır ki, bu gün muxtar respublikada mülkiyyətçiləri toxumla təmin etmək üçün 5 toxumçuluq təsərrüfatı fəaliyyət göstərir. Taxılçılıqla məşğul olan torpaq mülkiyyətçiləri keyfiyyətli toxum materialı əldə etmək üçün həmin təşkilatlara müraciət edə bilərlər. Bundan əlavə, sahibkarların, torpaq mülkiyyətçilərinin özlərində olan toxumluq taxılın təmizlənməsində "Araz" Elm-İstehsalat Birliyinin toxumçuluq təsərrüfatında, "Bərəkət" toxumçuluq təsərrüfatında, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin yerli təşkilatlarında və "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin Taxıl Terminalında yaradılmış şəraitdən istifadə etmək olar.

Qeyd edək ki, toxum materialı bir çox xəstəliklərin törədiciləri ilə yoluxa bilər. Bu xəstəliklərin təsiri nəticəsində səpin normasına düzgün əməl edilsə də, sahədə sağlam cücərti alınması mümkün olmur. Toxumla yayılan, taxıl üçün qorxulu sayılan bir çox xəstəliklərin qarşısını almaq və ona qarşı mübarizə aparmaq üçün səpiləcək toxum materialının dərmanlanması ən vacib tədbirlərdən biridir. Bu xəstəliklərə qarşı mübarizə məqsədilə toxum tubazol (1,5 kiloqram ton), rubin (1,5 kiloqram ton), saneb (1,6 kiloqram ton) preparatlarının biri ilə səpinqabağı dərmanlanmalıdır.

Taxılın səpin norması sələflərindən, torpağın münbitliyindən, səpin müddətindən və üsulundan, əkiləcək sortun bioloji xüsusiyyətlərindən, toxumun təmizliyindən və mütləq çəkisindən və digər amillərdən asılı olaraq dəyişə bilər. Gecikmiş səpinlərdə səpin norması 10-15 faiz artırılmalıdır. Səpin aşağı norma ilə aparılarsa, bitkilər seyrək olur, alaqların inkişafı üçün əlverişli şərait yaranır. Ona görə də belə əkinlər az məhsul verir. Səpin norması çox olduqda isə sahədə bitkilər sıx olur, bir-birlərini kölgələndirir, torpaqda su və qida maddələri çatışmır. Nəticədə, bitkilər seyrək və cılız dənli kiçik sünbüllər əmələ gətirir.

Səpin norması bir hektara orta hesabla 230-250 kiloqram buğda, 180-200 kiloqram arpa toxumudur. Səpin zamanı respublikanın torpaq-iqlim şəraitinə uyğun gələn "Qobustan", "Bezostaya-1", "Fatimə", "Quality" və "Renan" sortlarından, arpa sortlarından isə "Naxçıvan dəni" və "Cəlilabad-19" sortlarının əkilməsi məqsədəuyğundur. Səpin zamanı toxumlar torpağa elə basdırılmalıdır ki, onlar rütubət, istilik və hava ilə normal təmin oluna bilsinlər. Normal rütubətli və yaxşı becərilmiş torpaqlarda toxumun 5-6 santimetr dərinlikdə basdırılması məsləhətdir. Nəzərə almaq lazımdır ki, toxum dayaz basdırılarsa, taxılın kök sistemi torpaqla zəif əlaqədə olur və taxıllarda kök yatması baş verir. Bu, gələcəkdə məhsul itkisinə səbəb olur.

Səpin qurtaran kimi həmin sahəni mora və ya şırım açaraq suvarmaq lazımdır. Taxıl bitkilərinin suvarılmasında əsas üsullardan biri şırımlarla suvarmadır. Bu üsul tətbiq edildikdə torpaq yaxşı rütubətlənir, qaysaq əmələ gəlmir, torpağın strukturu yaxşı saxlanılır, su itkisi olmur, əl əməyindən az istifadə edilir, mora üsuluna nisbətən torpaq tam doyduğundan quraqlığa qarşı davamlı olur.

Göstərilən aqrotexniki tədbirlərə əməl edilərsə, yüksək məhsuldarlığın əsası qoyular.

**Xaliq ABBASOV**
***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri***

*Gənclərdən ibarət kənd komandaları arasında keçirilən futbol üzrə şəhər və rayon birinciliklərində növbəti oyunlar keçirilib.*

İdman

# Futbol üzrə birincilik davam edir



Naxçıvan Muxtar Respublikasının kəndlərində futbolun inkişafı üçün əlverişli şəraitin olması, o cümlədən yeni stadionların yaradılması nəzərə alınaraq Gənclər və İdman Nazirliyinin, şəhər və rayon Gənclər və İdman idarələrinin təşkilatçılığı ilə gənclərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə keçirilən yarışda azarkeşlər maraqlı oyunların şahidi olublar.

Naxçıvan şəhəri üzrə keçirilən görüşdə Bulqan kənd komandası tumbullu həmkarlarını 9:2 hesabı ilə məğlub edib.

Şərur rayonu üzrə isə 4 görüş keçirilib. Danyeri Yuxarı Daşarx komandasından (5:1), Dərəkənd Kərimbəyli komandasından (3:0), Yuxarı Aralıq Kürçülü komandasından (5:0), Xələc Aşağı Daşarx komandasından (2:1) üstün olub. Babək rayonunda keçirilən görüşdə Nəhəcir kənd komandası Qahab kənd komandasını minimal top fərqi ilə məğlub edib – 6:5.

Culfa rayonu üzrə keçirilən görüşlərdə Qazançı Saltaq komandasına qalib gəlsə də (3:0), Camaldın komandasına məğlub olub – 4:5. Ən böyük hesablı qələbə Kəngərli rayonunda qeydə alınıb. Belə ki, Qabıllı Çalxanqala komandasını 10 dəfə mərkəzə dəvət edib. Qıvraq isə Qarabağlar komandasından üstün olub – 5:1. Ordubad rayonu üzrə keçirilən görüşdə Düylün Azadkənd komandasını (6:1), Şahbuz rayonu üzrə Keçili Şahbuzkənd komandasını (3:1), Sədərək rayonu üzrə isə Qaraağac Kərki komandasını (12:6) məğlub etməyi bacarıb.

# Cüdoçumuz bürünc medal qazanıb




Bakı şəhərindəki "Sərhədçi" İdman Olimpiya Mərkəzində 23 yaşadək cüdoçular arasında Azərbaycan birinciliyi keçirilib.

Yarışda 53 klubu təmsil edən 384 gənc cüdoçu medallar uğrunda mübarizə aparıb. 8 çəki dərəcəsində keçirilən birincilikdə Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının 3 idmançısı da iştirak edib.

İdmançılarımızdan Abdulla İsmayılov 100 kiloqram çəki dərəcəsində bürünc medal qazanıb.

Ölkə birinciliyinin qalib və mükafatçılarına medallar və Azərbaycan Cüdo Federasiyasının diplomları təqdim olunub.

# Karate üzrə Şərur rayon birinciliyi keçirilib



*Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyası ilə Şərur Rayon Gənclər və İdman İdarəsinin birgə təşkil etdiyi karate-do üzrə rayon açıq birinciliyinə yekun vurulub.*

Birincilikdə 10 komandanın (Şərur 1, Naxçıvan 2, Kəngərli 3, Sədərək 4) tərkibində 100 yeniyetmə idmançı (50 oğlan, 50 qız) mübarizə aparıb. 10 yaş qrupunda 20 çəki dərəcəsində mübarizə aparan idmançılar arasında keçirilən birincilikdə 6-7 yaş qrupunda oğlanlar arasında 19 kiloqram çəki dərəcəsində Xəyyam Məmmədov, 23 kiloqram çəki dərəcəsində Aydın Ələkbərov, 6-7 yaş qrupunda qızlar arasında 20 kiloqram çəki dərəcəsində Ləman Bağırova, 8-9 yaş qrupunda oğlanlar arasında 23 kiloqram çəki dərəcəsində Kənan Hacıyev, 35 kiloqram çəki dərəcəsində Rafiq Hüseynli, 8-9 yaş qrupunda qızlar arasında 27 kiloqram çəki dərəcəsində Özləm Hacıyeva qalib gəliblər. 10-11 yaş qrupunda 30 kiloqram çəki dərəcəsində Qafar Hüseynov, 35 kiloqram çəki dərəcəsində Ağoş Allahverdiyev, 40 kiloqram çəki dərəcəsində Həbib Əhmədov, 10-11 yaş qrupunda qızlar arasında 35 kiloqram çəki dərəcəsində Zəhra Məmmədova, 12-13 yaş qrupunda oğlanlar arasında 33 kiloqram çəki dərəcəsində Xəzər Məmmədli, 42 kiloqram çəki dərəcəsində Məhəmməd Bağırov qələbə qazanıblar. 12-13 yaş qrupunda qızlar arasında 38 kiloqram çəki dərəcəsində Ayan Məmmədova, 14-15 yaş qrupunda oğlanlar arasında 57 kiloqram çəki dərəcəsində Vüsal Seyidov, 14-15 yaş qrupunda qızlar arasında 47 kiloqram çəki dərəcəsində Fatimə Bədəlova, 16-17 yaş qrupunda 54 kiloqram çəki dərəcəsində isə Səma Məmmədli hamıdan güclü olublar.

Qaliblərə təşkilatçılar tərəfindən diplomlar təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

# Boccia idman növü üzrə yarış başa çatıb



Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin idman zalında rayon Gənclər və İdman İdarəsinin, Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyası Şahbuz rayon bölməsi və Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatının Gənclər Birliyinin birgə təşkilatçılığı ilə 18 yaşadək fiziki imkanları məhdud uşaqlar arasında boccia idman növü üzrə yarış keçirilib.

Yarışda 14 fiziki imkanları məhdud uşaq iştirak edib.

Yekun nəticəyə əsasən qalib adını Şıxı Şıxıyev qazanıb. Amin Cəfərzadə ikinci, Arzu Orucov isə üçüncü olub.

Tədbirin sonunda yarışın qaliblərinə və bütün iştirakçılara təşkilatçıların diplomları təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Pərviz Hacılı
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 555